AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

ƏMR

№ 27/5

Bakı şəhəri "14" aprel 2022-ci il

"Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili Qaydası"nın qüvvəyə minməsi barədə

"Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili Qaydası"nın 3.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə "Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili Qaydası" işlənib hazırlanmışdır.

Sözügedən sənədin tətbiqini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin 5.6.6-cı yarımbəndini rəhbər tutaraq,

əmr edirəm:

1. "Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili Qaydası" 15 aprel 2022-ci il tarixindən qüvvəyə minsin.
2. Dövlət Mülki Aviasiya Agentliyinin (DMAA) və "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin aidiyyəti mütəxəssisləri tərəfindən Qaydaların öyrənilməsi və icrası təmin edilsin.
3. Qaydalar DMAA-nın rəsmi internet saytında dərc edilsin.
4. Əmr bütün şəxsi heyətə çatdırılsın.
5. Əmrin icrasına nəzarət direktorun müavini Hacıağa Hacıyevə həvalə edilsin.

Direktor **Arif Məmmədov**

Dövlət Mülki Aviasiya Agentliyinin
direktorunun
27/5 №-li 14 aprel 2022-ci il tarixli
Əmri ilə
TƏSDİQ OLUNUB

UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİNİN İDARƏ EDİLMƏSİ SİSTEMİNİN TƏŞKİLİ QAYDASI

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № AAR-GM-003

Nəşr № 01

Qüvvəyə minmə tarixi: 15 aprel 2022-ci il

Bakı şəhəri

https://www.caa.gov.az

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 Mündəricat

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ 1

0.1 Mündəricat 1

0.2 Səhifələrin Siyahısı 3

0.3 Sənədin Yayılma Siyahısı 4

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 5

1 Ümumi müddəalar 7

2 Əsas anlayışlar 7

3 Qaydanın tətbiq dairəsi 8

4 UTİS-in təyinatı 9

5 UTİS-in strukturu 9

6 Uçuşların təhlükəsizliyinin təmin edilməsi siyasəti və məqsədləri 10

7 Uçuşların təhlükəsizliyinin idarə edilməsində mülki aviasiya subyektlərinin vəzifələri 10

8 UTİS-in təşkili üzrə mülki aviasiya subyektlərinin və riskləri idarə edən şəxslərin vəzifələri 11

9 Uçuşların təhlükəsizliyinin təşkil edilməsində mülki aviasiya subyektinin rəhbərinin vəzifələri 11

10 Uçuşların təhlükəsizliyinin idarə edilməsində məsul şəxslərə dair tələblər 12

11 Uçuşların təhlükəsizliyinin idarə edilməsi üzrə Müşahidə Şurası 12

12 Uçuşların təhlükəsizliyinin idarə edilməsi üzrə Müşahidə qrupu 12

13 Təşkilatın Fövqəladə Vəziyyət Planı və onun razılaşdırılması 14

14 UTİS üzrə sənədləşmə 14

15 UTİS üzrə qeydlərin aparılmasına dair tələblər 14

16 Uçuşların təhlükəsizliyi ilə bağlı risklərin idarə edilməsi 15

17 Uçuşların təhlükəsizliyinin təmini üçün təhlükənin müəyyən edilməsi 16

18 Uçuşların təhlükəsizliyi üçün riskin qiymətləndirilməsi və uzadılması 17

19 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə ümumi nəzarət 18

20 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə fəaliyyətin Monitorinqi və Onun Ölçülməsi 18

21 Mülki aviasiya subyektində dəyişikliklərin idarə olunması 19

22 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə fəaliyyətin Mütəmadi Olaraq Təkmilləşdirilməsi 20

23 Uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq 21

24 UTİS-in tətbiqinin planlaşdırılması 21

25 Uçuşlara dair məlumatların daimi monitorinq proqramı 22

26 UTİS-in mülki aviasiya sahəsində fəaliyyət göstərən təşkilatın fəaliyyət istiqamətlərinə uyğunluğu 22

27 UTİS-də boşluqların təhlili 22

28 UTİS-in qiymətləndirilməsi 23

29 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə dövlət nəzarəti 23

30 Dövlət nəzarəti nəticəsində aşkar edilmiş nöqsanların aradan qaldırılması üzrə təşkilatların vəzifələri 23

31 Bu Qaydanın pozulmasına görə məsuliyyət 24

0.2 Səhifələrin Siyahısı

Səhifə	Qüvvəyə minmə tarixi	Reviziya №
1	15.APR.2022	00
2	15.APR.2022	00
3	15.APR.2022	00
4	15.APR.2022	00
5	15.APR.2022	00
6	15.APR.2022	00
7	15.APR.2022	00
8	15.APR.2022	00
9	15.APR.2022	00
10	15.APR.2022	00
1	15.APR.2022	00
12	15.APR.2022	00
13	15.APR.2022	00
14	15.APR.2022	00
15	15.APR.2022	00
16	15.APR.2022	00
17	15.APR.2022	00
18	15.APR.2022	00
19	15.APR.2022	00
20	15.APR.2022	00
21	15.APR.2022	00
22	15.APR.2022	00
23	15.APR.2022	00
24	15.APR.2022	00

0.3 Sənədin Yayılma Siyahısı

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	Q-Pulse
2	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	DMAA-nın rəsmi internet saytı

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: *Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.*

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr № 01	15.APR.2022	Dir.Əmri № 27/5 14.05.2022	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

1 ÜMUMI MÜDDƏALAR

1.1 "Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili Qaydası" (bundan sonra - Qayda) "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanının 3.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və aviasiya hadisələri və insidentləri baş vermədən riskləri qiymətləndirmək üçün uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkil edilməsi və ona nəzarətin həyata keçirilməsi qaydalarını müəyyən edir.

1.2 Bu Qayda "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) standartları və tövsiyə olunan təcrübəsi, habelə uçuşların təhlükəsizliyi sahəsində mütərəqqi beynəlxalq təcrübə nəzərə alınaraq hazırlanmışdır.

1.3 Bu Qaydanın əsas məqsədi Azərbaycan Respublikasında mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin məqbul hesab edilən səviyyəsinin əldə edilməsi, uçuşların təhlükəsizliyinə təhlükə mənbələrinin aşkarlanması və risklərə nəzarət yolu ilə uçuşların təhlükəsizliyinin daha yüksək səviyyəsinə nail olunmasıdır.

2 ƏSAS ANLAYIŞLAR

2.1 Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1 **Fövqəladə Vəziyyət Planı** - xidmət təminatçısı tərəfindən hazırlanan və uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təlimatına uyğun olaraq mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektdə (bundan sonra – mülki aviasiya subyekti) baş verə biləcək fövqəladə halları və bu halların aradan qaldırılması üçün görülməli olan tədbirlərin məcmusu;

2.1.2 **Uçuşlara dair məlumatların daimi monitorinq proqramı** - mülki aviasiya sahəsində təhlükəsizliyin təmin edilməsini təkmilləşdirmək məqsədilə hava gəmilərinin mütəmadi istismarından əldə olunan uçuş əməliyyatlarına dair məlumatları özündə ehtiva edən sənəd;

2.1.3 **Risklərin azaldılması** - təhlükə amillərinin həyata keçmə ehtimalının qiymətləndirilməsi nəticəsində onların qarşısının alınmasına, yaxud fəsadlarının və ya başvermə ehtimalının azaldılmasına yönəlmiş profilaktik və bərpaedici tədbirlərin məcmusu; (bu anlayış «Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası »ndan götürülmüşdür)

2.1.4 **Uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi (UTİS)** - zəruri təşkilati struktur, uçuşların təhlükəsizliyinin təmin olunmasına cəlb edilmiş subyektlərin vəzifələri və məsuliyyəti daxil olmaqla, bu sahədə müvafiq qayda və prosedurların məcmusu;

2.1.5 **Uçuşların təhlükəsizliyinin idarə edilməsi** - təhlükənin müəyyən edilməsi və uçuşların təhlükəsizliyinə təsir edə biləcək riskin qiymətləndirilməsi;

2.1.6 U**çuşların təhlükəsizliyi** - təhlükə mənbələrinin aşkarlanması və risklərə nəzarət yolu ilə uçuşların təhlükəsiz həyata keçirilməsi, o cümlədən insan həyatına və sağlamlığına, yaxud əmlaka ziyan vurulma riskinin azaldılması və qəbuledilən səviyyədə saxlanılması üçün görülən tədbirlərin məcmusu;

2.1.7 U**çuşların təhlükəsizliyinin təmin edilməsi üzrə səmərəlilik göstəriciləri** - uçuşların təhlükəsizliyinin təmin edilməsinin monitorinqi və səmərəliliyinin

qiymətləndirilməsi meyarları;

2.1.8 **Uçuşların təhlükəsizliyi üçün risk** - təhlükənin baş vermə ehtimalı, yaxud onun fəsadlarının və ya nəticələrinin uçuşların təhlükəsizliyinə təsirinin ciddiliyi;

2.1.9 **Mülki aviasiya sahəsində fəaliyyət göstərən təşkilatın fəaliyyət istiqamətləri**- təşkilati struktur, resurslar, fəaliyyət xüsusiyyətləri və digər təşkilatlarla qarşılıqlı əlaqələrə əsasən müəyyən edilən meyar;

2.1.10 **Mülki aviasiya sahəsində fəaliyyət göstərən təşkilat** – UTİS-in təşkil və idarə olunmasına görə məsul olan, mülki aviasiya sahəsində fəaliyyət göstərən qurum;

2.1.11 **Nöqsanların aradan qaldırılması tədbirləri** - təşkilatda müfəttiş yoxlamaları çərçivəsində UTİS-in qiymətləndirilməsi zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılmasına yönəlmiş tədbirlər.

2.1.12 **Öhdəlik bəyanatı** - şəhadətnamə, sertifikat və mülki aviasiya fəaliyyəti ilə məşğul olmaq üçün hər hansı formada icazə almış fiziki və hüquqi şəxslər tərəfindən müvafiq icazə sənədinə və qanunvericiliyə uyğun fəaliyyət göstəriləcəyinə dair Agentliyə təqdim edilən yazılı bildiriş;

2.1.13 **Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə nöqsanlar** - uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq müqavilələrə və standartlara, o cümlədən milli qanunvericiliyə və digər normativ akt və təlimatlara uyğunsuzluq;

2.1.14 **Uçuşların təhlükəsizliyinə dair məlumat baza-qeydiyyat sistemi** - uçuşların təhlükəsizliyinin idarə edilməsi sahəsində daxil olan, təhlil edilmiş və ya sistemləşdirilmiş informasiyanın məcmusu;

2.2 Bu Qaydada istifadə olunan digər anlayışlar “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının bu sahəni tənzimləyən digər normativ hüquqi aktlarında nəzərdə tutulan mənaları ifadə edir.

3 QAYDANIN TƏTBIQ DAIRƏSI

3.1 Bu Qayda mülki aviasiya sahəsində fəaliyyət göstərən aşağıdakı təşkilatların və xidmət təminatçılarının fəaliyyətinə şamil edilir:

3.1.1 Hava gəmisinin istismarı ilə əlaqədar təhlükəsizliyə dair riskləri müəyyən edən təlim qurumları;

3.1.2 Kommersiya məqsədilə hava daşımalarını həyata keçirən hava gəmisi və helikopter istismarçıları;

3.1.3 Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra-Agentlik) tərəfindən təsdiq olunmuş hava gəmisi və helikopter istismarçılarına xidmət göstərən qurumlar;

3.1.4 hava gəmisinin layihələndirilməsi və istehsalına dair məsul olan qurumlar;

3.1.5 hava hərəkətinin idarə olunmasını həyata keçirən qurumlar;

3.1.6 sertifikatlaşdırılmış aerodromların istismarçıları;

3.1.7 mülki hava gəmilərinin beynəlxalq istismarçıları.

4 UTİS-IN TƏYINATI

4.1 UTİS mülki aviasiya subyektlərinin uçuşların təhlükəsizliyinin idarə edilməsi üzrə fəaliyyətinin və resurslarının səmərəli idarə edilməsi üçün onların fəaliyyət xüsusiyyətləri nəzərə alınaraq təşkil edilir.

4.2 UTİS-in məqsədi mülki aviasiya subyektləri tərəfindən uçuşların təhlükəsizliyinin idarə edilməsinin təmin edilməsidir.

4.3 UTİS uçuşların təhlükəsizliyinə dair məlumatların toplanması və təhlil edilməsi, o cümlədən uçuşların təhlükəsizliyi üçün risklərin qiymətləndirilməsi vasitəsilə həyata keçirilir.

4.4 UTİS aviasiya hadisələri və insidentləri baş vermədən uçuşların təhlükəsizliyi üçün risklərin idarə edilməsinə yönəlmişdir.

5 UTİS-IN STRUKTURU

5.1 UTİS aşağıda qeyd edilən komponentlərdən və bu komponentlərin tərkib elementlərindən ibarətdir:

5.1.1 Özündə aşağıdakı elementləri ehtiva edən uçuşların təhlükəsizliyinin təmin edilməsinin əsas istiqaməti:

1. idarəetmə öhdəliyi və məsuliyyəti;

2. təhlükəsizlik hesabatları;

3. təhlükəsizliyin təmin edilməsinə xidmət edən personalın müəyyən edilməsi;

4. fövqəladə hallara dair planın əlaqələndirilməsi;

5. UTİS-in sənədləşdirilməsi;

5.1.2 Özündə aşağıdakı elementləri ehtiva edən uçuşların təhlükəsizliyinə dair risklərin idarə edilməsi:

1. təhlükənin müəyyən edilməsi;

2. uçuşların təhlükəsizliyi sahəsində risklərin idarə edilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi;

5.1.3 Özündə aşağıdakı elementləri ehtiva edən uçuşların təhlükəsizliyinin zəmanəti:

1. uçuşların təhlükəsizliyinə xidmətin monitorinqi və ölçülməsi;

2. hər hansı dəyişikliyin idarə edilməsi;

3. UTİS-in davamlı olaraq idarə edilməsi;

5.1.4 Özündə aşağıdakı elementləri ehtiva edən uçuşların təhlükəsizliyinin təşviqi:

1. təlim və təhsil;

2. uçuşların təhlükəsizliyi sahəsində əməkdaşlıq.

5.2 Hər bir təşkilat UTİS-in strukturunu Agentliklə razılaşdırıldıqdan sonra təsdiq edir.

6 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSI SIYASƏTI VƏ MƏQSƏDLƏRI

6.1 Uçuşların təhlükəsizliyinin təmin edilməsi siyasəti mülki aviasiya subyekti tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların Təhlükəsizliyinə dair Dövlət Proqramı"na əsasən hazırlanır.

6.2 Uçuşların təhlükəsizliyinin təmin edilməsi aşağıdakıları nəzərdə tutur:

6.2.1 UTİS-in təşkilinin prinsiplərini;

6.2.2 UTİS-in təşkili və idarə edilməsinə cavabdeh olan şəxslərin məsuliyyətini;

6.2.3 Uçuşların təhlükəsizliyinin təmin edilməsi istiqamətlərini və mülki aviasiya subyektinin uçuşların təhlükəsizliyinin təmini sahəsində öhdəliyini;

6.2.4 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin tətbiqi üçün zəruri resursları;

6.2.5 Uçuşların təhlükəsizliyi ilə bağlı məlumatın verilməsini təmin edən proqram təminatının tətbiq edilməsini.

6.3 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə öhdəlik bəyanatı mülki aviasiya subyektinin rəhbəri tərəfindən təsdiq edilir və mütəmadi olaraq yenilənir.

7 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ IDARƏ EDILMƏSINDƏ MÜLKI AVIASIYA SUBYEKTLƏRININ VƏZIFƏLƏRI

7.1 UTİS-i təşkil və tətbiq edən mülki aviasiya subyektlərinin uçuşların təhlükəsizliyinin idarə edilməsi sahəsində vəzifələri aşağıdakılardır:

7.1.1 Uçuşların təhlükəsizliyinin idarə edilməsi ilə bağlı bilik və bacarıqlarını mütəmadi təkmilləşdirmək;

7.1.2 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sahəsində icra intizamını yüksək səviyyədə saxlamaq;

7.1.3 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sahəsində normativ hüquqi aktların tələblərinə riayət etmək;

7.1.4 Xidmətlərin təhlükəsiz həyata keçirilməsinin təmin edilməsi üçün bütün resurslarını sərf etmək;

7.1.5 UTİS-in təşkili və tətbiqini təmin etmək;

7.1.6 UTİS-in mülki aviasiya subyektinin fəaliyyətinin xüsusiyyətlərinə uyğunluğunu təmin etmək üçün müntəzəm olaraq ona nəzarət etmək.

8 UTİS-IN TƏŞKILI ÜZRƏ MÜLKI AVIASIYA SUBYEKTLƏRININ VƏ RISKLƏRI IDARƏ EDƏN ŞƏXSLƏRIN VƏZIFƏLƏRI

8.1 Uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində mülki aviasiya subyektinin vəzifələri aşağıdakılardır:

8.1.1 Uçuşların təhlükəsizliyinin təmin edilməsi istiqamətlərini müəyyən etmək hüququna malik və UTİS-in tətbiqinə görə məsul şəxsi müəyyən etmək;

8.1.2 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə fəaliyyətin əsas istiqamətlərini müəyyən edəcək baş idarəedici şəxsi təyin etmək;

8.1.3 Uçuşların təhlükəsizliyinin təmin edilməsi ilə əlaqəsi olan şəxslərin və digər işçilərin UTİS-in tətbiqi ilə əlaqədar vəzifələrini müəyyən etmək.

8.1.4 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün riskləri idarə edən şəxs aşağıdakı vəzifələrə malikdir:

8.1.5 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə dair istiqamətləri təşviq etmək və əlaqələndirmək;

8.1.6 Mülki aviasiya subyektinin uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə məqsəd və hədəflərini müəyyən etmək;

8.1.7 Uçuşların təhlükəsizliyinə dair məlumatın verilməsini təmin edən proqram təminatı vasitəsilə toplanmış məlumatlar əsasında təşkilatın təhlil aparmaq imkanını müəyyən və tətbiq etmək;

8.1.8 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün məlumatın verilməsini təmin edən proqram təminatını təşviq etmək.

9 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ TƏŞKIL EDILMƏSINDƏ MÜLKI AVIASIYA SUBYEKTININ RƏHBƏRININ VƏZIFƏLƏRI

9.1 UTİS-in təşkil edilməsi üçün mülki aviasiya subyektinin rəhbərinin vəzifələri aşağıdakılardır:

9.1.1 Uçuşların təhlükəsizlik səviyyəsinin daha da yüksəldilməsinə yönəlmiş strateji məqsəd və vəzifələrə, prinsip və əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq təşkilatda UTİS-in təşkili siyasətini formalaşdırmaq;

9.1.2 Təşkilat daxilində uçuşların təhlükəsizliyi üzrə işçi heyətin hüquq və vəzifələrini müəyyən etmək;

9.1.3 Təşkilat daxilində uçuşların təhlükəsizliyi üzrə hüquq və vəzifələri rəsmiləşdirmək;

9.1.4 Uçuşların təhlükəsizliyi üçün yol verilə bilən risklər ilə bağlı qərarların verilməsi üzrə səlahiyyətə malik olan şəxsləri müəyyən etmək;

9.1.5 UTİS-in idarə edilməsi üzrə səmərəli sistemin yaradılması və saxlanması üçün xüsusi təlimlər keçmiş şəxsi müəyyən etmək;

9.1.6 Nöqsanların aradan qaldırılması tədbirlərinin həyata keçirilməsinə nəzarət etmək və onların nəticələrini yoxlamaq;

9.1.7 Uçuşların təhlükəsizliyinə dair hesabat və sənədləşmənin konfidensiallığını təmin etmək;

9.1.8 Uçuşların təhlükəsizliyinə cavabdeh olan işçi heyətin təlimlərini planlaşdırmaq;

9.1.9 Uçuşların təhlükəsizliyi ilə bağlı işçi heyətinə tövsiyələr vermək;

9.1.10 Aviasiya sənayesində uçuşların təhlükəsizliyinə dair narahatlıqları və onların mülki aviasiya subyekti tərəfindən göstərilən xidmətlərə təsir dərəcəsini nəzarətdə saxlamaq;

9.1.11 Uçuşların təhlükəsizliyinə dair və uçuşlar haqqında məlumat baza-qeydiyyat sisteminin formalaşdırılması və qorunmasını təmin etmək.

9.2 UTİS-in idarə edilməsi üzrə səlahiyyətli şəxs Agentliklə razılaşdırılaraq mülki aviasiya subyektinin rəhbəri tərəfindən təyin edilir.

10 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ IDARƏ EDILMƏSINDƏ MƏSUL ŞƏXSLƏRƏ DAIR TƏLƏBLƏR

10.1 Mülki aviasiya subyekti uçuşların təhlükəsizliyinin təmin edilməsi sisteminin səmərəli idarə edilməsi üçün müvafiq sahədə ixtisaslaşmış və uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində azı 3 (üç) il iş təcrübəsinə malik olan UTİS üzrə vəzifəli şəxsi təyin edir.

10.2 UTİS üzrə vəzifəli şəxs istənilən zaman mülki aviasiya subyektinin rəhbərliyi ilə əlaqə yaratmaq və uçuşların təhlükəsizliyinə risk yarada biləcək hallar barədə məlumat vermək imkanına malik olmalıdır.

11 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ IDARƏ EDILMƏSI ÜZRƏ MÜŞAHIDƏ ŞURASI

11.1 Mülki aviasiya subyektlərində UTİS-in təşkili və qiymətləndirilməsi, o cümlədən, uçuşların təhlükəsizliyinin təmin edilməsinə ümumi nəzarətin həyata keçirilməsi məqsədilə mülki aviasiya subyektinin rəhbərinin sədrliyi ilə Müşahidə Şurası yaradılır.

11.2 Müşahidə Şurasının səlahiyyətləri aşağıdakılardır:

11.2.1 UTİS-in təşkilinin səmərəliliyini yoxlamaq;

11.2.2 Uçuşların təhlükəsizliyi üçün təhdidlər üzrə preventiv tədbirlərin vaxtında görülməsinə nəzarət etmək;

11.2.3 UTİS-in mülki aviasiya subyektinin uçuşların təhlükəsizliyinin təmin edilməsi istiqamətlərinə uyğunluğuna nəzarət etmək;

11.2.4 Uçuşların təhlükəsizliyinin idarə edilməsi proseslərinin səmərəliliyini yoxlamaq;

11.2.5 UTİS-in səmərəli fəaliyyət göstərməsi üçün zəruri resursların ayrılmasını təmin etmək.

11.3 Müşahidə Şurası mülki aviasiya subyektinin bütün əməkdaşları üçün icrası məcburi olan qərarlar qəbul edir.

12 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ IDARƏ EDILMƏSI ÜZRƏ MÜŞAHIDƏ QRUPU

12.1 Mülki aviasiya subyektləri risklərin idarə olunmasının əsas istiqamətlərinin səmərəliliyinin və etibarlılığının qiymətləndirilməsi məqsədilə uçuşların təhlükəsizliyinin təmin edilməsinə görə cavabdeh olan Müşahidə qrupu yaradır.

12.2 Müşahidə qrupunun fəaliyyətinə uçuşların təhlükəsizliyinin təmin edilməsini idarə edən vəzifəli şəxs və mülki aviasiya subyektinin aidiyyəti struktur bölmə rəhbərləri nəzarət edir. UTİS-in vəzifəli şəxsi məsləhətçi qismində Müşahidə qrupunun işində iştirak edir və mütəmadi, lakin hər 3 (üç) ayda bir dəfədən az olmayaraq, görüşlər keçirir və uçuşların təhlükəsizliyinin idarə edilməsi üzrə rəy verir.

12.3 Müşahidə qrupunun vəzifələri aşağıdakılardır:

12.3.1 UTİS-in səmərəliliyini qiymətləndirmək;

12.3.2 Nöqsanların aradan qaldırılmasına yönəlmiş tədbirlərin vaxtında həyata keçirilməsinə nəzarət etmək;

12.3.3 Mülki aviasiya subyektinin uçuşların təhlükəsizliyinin təmin edilməsində əsas fəaliyyət istiqamətlərinə və məqsədlərinə uyğun olmayan fəaliyyətini yoxlamaq;

12.3.4 Uçuşların təhlükəsizliyinin idarə edilməsi prosesinin səmərəliliyinə nəzarət etmək;

12.3.5 Mülki aviasiya subyektində nəzarətin təşkili məsələlərinə və mövcud resursların uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün müəyyən olunmuş tələblərə uyğun yönləndirilməsinə nəzarət etmək.

12.4 Mülki aviasiya subyekti Müşahidə qrupunun müəyyən etdiyi UTİS-in əsas istiqamətlərinə uyğun olaraq bu sistemin tətbiqini təmin edir.

12.5 Bu Qaydanın 9.1.5-ci yarımbəndi ilə müəyyən edilmiş sistemin səmərəliliyinin təmin edilməsi məqsədilə mülki aviasiya subyektində UTİS üzrə vəzifəli şəxs müəyyən edilir. Həmçinin Müşahidə qrupuna kömək göstərmək üçün mülki aviasiya subyekti tərəfindən daimi və (və ya) müvəqqəti əsaslarla uçuşların təhlükəsizliyi üzrə fəaliyyət qrupu yaradılır.

12.6 Müşahidə qrupu Müşahidə Şurasının nəzarəti ilə fəaliyyət göstərir və ona hesabat təqdim edir.

12.7 Uçuşların təhlükəsizliyinin təmin edilməsi vəzifələrinin ağırlıq xüsusiyyətlərindən asılı olaraq və uçuşların təhlükəsizliyinin qiymətləndirilməsi üçün əlavə yoxlamaların aparılması zəruri olduqda təşkilatda bir neçə belə qrup yaradıla bilər.

12.8 Müşahidə qrupu UTİS üzrə vəzifəli şəxsə aşağıda qeyd edilən vəzifələrin həyata keçirilməsində dəstək verir:

12.8.1 Risklərin idarə olunması fəaliyyətinin müvafiq fəaliyyət qrupu tərəfindən həyata keçirildiyini yoxlamaq məqsədilə mülki aviasiya subyektində uçuşların təhlükəsizliyinin təşkilinə nəzarət etmək;

12.8.2 Təhlükənin nəticələrini müəyyənləşdirmək üçün idarəetmə istiqamətlərini müəyyən edərək bu istiqamətləri təhlükənin mümkün ola biləcək nəticələri ilə əlaqələndirmək;

12.8.3 Yeni texnologiyaların tətbiqi ilə əlaqədar olaraq UTİS-ə edilən hər hansı dəyişikliklərin uçuşların təhlükəsizliyinə təsirini qiymətləndirmək;

12.8.4 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə nöqsanların aradan qaldırılması planlarının vaxtında həyata keçirilməsinə nəzarət etmək;

12.8.5 UTİS-in təşkilində iştirak edən əməkdaşların tutduğu vəzifəyə uyğun olaraq, onların uçuşların təhlükəsizliyi haqqında məlumatlılığının artırılması üçün tədbirlər görmək.

13 TƏŞKILATIN FÖVQƏLADƏ VƏZIYYƏT PLANI VƏ ONUN RAZILAŞDIRILMASI

13.1 Mülki aviasiya subyekti bu Qaydanın 14.1-ci maddəsində nəzərdə tutulmuş UTİS Təlimatına uyğun olaraq Agentlik ilə razılaşdırılmaqla Fövqəladə Vəziyyət Planı (bundan sonra - Plan) hazırlayır.

13.2 Plan mülki aviasiya subyekti tərəfindən görüləcək aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

13.2.1 Normal iş vəziyyətindən fövqəladə vəziyyətə təhlükəsiz və səmərəli keçidin təmin edilməsini;

13.2.2 Fövqəladə vəziyyətdə səlahiyətlərin digər mülki aviasiya subyektinə ötürülməsini;

13.2.3 Planda nəzərdə tutulmuş heyətin səmərəli fəaliyyət göstərməsini;

13.2.4 Fövqəladə halların aradan qaldırılması tədbirlərini həyata keçirən heyətin təlim keçməsini;

13.2.5 İşçi heyətin Planda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə uyğun olmasını.

14 UTİS ÜZRƏ SƏNƏDLƏŞMƏ

14.1 Mülki aviasiya subyektləri bu Qaydanın 14-cü hissəsində nəzərdə tutulmuş tələblərə uyğun olan UTİS Təlimatını hazırlayır və təsdiq olunmaq üçün Agentliyə təqdim edir.

14.2 Mülki aviasiya subyektləri UTİS-ə aid olan məlumat bazası-qeydiyyat sistemi təsis edir və orada olan məlumatların qorunmasını təmin edir..

14.3 UTİS Təlimatı mülki aviasiya subyektinin uçuşların təhlükəsizliyinin idarə edilməsi üzrə Təlimatına uyğun qəbul edilir.

14.4 UTİS Təlimatı aşağıdakılardan ibarətdir:

14.4.1 Uçuşların təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətləri və məqsədləri;

14.4.2 UTİS-ə dair tələblər;

14.4.3 UTİS-in təşkili;

14.4.4 UTİS-in təşkili üzrə vəzifəli şəxslərin hüquq və vəzifələri;

14.4.5 UTİS üzrə qeydlərin aparılması sistemi.

15 UTİS ÜZRƏ QEYDLƏRIN APARILMASINA DAIR TƏLƏBLƏR

15.1 Mülki aviasiya subyektləri UTİS üzrə qeydlərin aparılması sistemini təşkil edir.

15.2 UTİS üzrə qeydlər hər hansı kənar müdaxilədən qorunur.

15.3 Qeydlərin aparılması sistemi bu Qaydanın 15.5-ci bəndində nəzərdə tutulan müddətdə onun izlənə bilməsini təmin edən şəkildə təşkil olunur.

15.4 UTİS üzrə qeydlərin aparılması elektron qaydada həyata keçirilir. Kənar şəxslərin UTİS üzrə məlumat baza-qeydiyyat sisteminə müdaxilə etməsini istisna edən tədbirlər görülür.

15.5 Məlumatların arxivləşdirilməsini təmin etmək üçün istifadə olunan bütün kompüter avadanlığı etibarlı mühafizə olunur, onun proqram təminatında dəyişiklik baş verdikdə orada olan zəruri məlumatlara çatımlılığın davamlı olaraq təmin edilməsi üçün 24 (iyirmi dörd) saat müddətində müvafiq tədbirlər görülür. Sistemdəki bütün qeydlər ən azı 5 (beş) il müddətinə saxlanılır.

15.6 Qeydlər bu Qaydanın 15.5-ci bəndində nəzərdə tutulan müddətdə etibarlıdır. Məlumatların saxlanma müddəti həmin qeydlərin yaradıldığı, yaxud sonuncu dəfə dəyişdirildiyi tarixdən hesablanır.

15.7 UTİS üzrə - qeydlərə sadalananlarla məhdudlaşmamaq şərtilə, aşağıdakılar daxildir:

15.7.1 Hər bir təhlükənin mümkün xoşagəlməz fəsadlarının, yaxud nəticəsinin qiymətləndirilməsi;

15.7.2 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə səmərəlilik göstəriciləri, hədəflər və müvafiq diaqramlar;

15.7.3 Uçuşların təhlükəsizliyi ilə bağlı tamamlanmış, yaxud yerinə yetirilməkdə olan qiymətləndirmələr barədə qeydlər;

15.7.4 UTİS-in yoxlanması və auditinin nəticələrinə dair qeydlər;

15.7.5 Uçuşların təhlükəsizliyinin təkmilləşdirilməsi ilə bağlı qeydlər;

15.7.6 UTİS-in işçi heyətinin uçuşların təhlükəsizliyi üzrə təlimləri və onların qiymətləndirilməsi barədə qeydlər;

15.7.7 UTİS üzrə keçirilən iclasların protokolları;

15.7.8 UTİS-in icrası üzrə plan.

16 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYI ILƏ BAĞLI RISKLƏRIN IDARƏ EDILMƏSI

16.1 Uçuşların təhlükəsizliyi ilə bağlı risklərin idarə edilməsi aşağıdakı mərhələlərdə həyata keçirilir:

16.1.1 Təhlükənin müəyyən olunması;

16.1.2 Uçuşların təhlükəsizliyi üçün riskin qiymətləndirilməsi;

16.1.3 Risklərin azaldılması.

16.2 Mülki aviasiya subyekti aviasiya məhsulları və ya xidmətləri ilə əlaqədar olan uçuşların təhlükəsizliyinə təsir edə bilən təhlükənin müəyyən edilməsi qaydasını tərtib edir.

16.3 Daxili məlumatın verilməsini təmin edən proqram təminatı vasitəsilə toplanan məlumatların mütəmadi şəkildə daxil olması və digər mülki aviasiya subyektləri arasında yayılmasının təmin edilməsi məqsədilə təşkilat bu qaydaların səmərəli tətbiqini təmin edir.

16.4 Mülki aviasiya subyekti müəyyən edilmiş təhlükə üçün xarakterik riskləri təhlil edir, onları qiymətləndirir və onlar üzərində nəzarəti təmin edir.

17 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ TƏMINI ÜÇÜN TƏHLÜKƏNIN MÜƏYYƏN EDILMƏSI

17.1 Mülki aviasiya subyekti uçuşların təhlükəsizliyinə dair toplanmış məlumatlara əsasən uçuşların təhlükəsizliyi üçün təhlükənin qarşısının alınması məqsədilə qabaqlayıcı (preventiv) tədbirlər görür, dərhal cavab verilmə (proaktiv) və gələcək hadisələrin qarşısının alınması üçün öncədən müəyyənetmə (prediktiv) metodları vasitəsilə baş verə biləcək təhlükəni müəyyən edir.

17.2 Mülki aviasiya subyektinin məlumatların daxildə verilməsini təmin edən proqram təminatı aşağıdakılardan ibarətdir:

17.2.1 Mütəmadi olaraq uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə nöqsanların, o cümlədən, uçuşların təhlükəsizliyi üçün hədənin müəyyən edilməsi və qiymətləndirilməsi:

17.2.2 Uçuşların təhlükəsizliyinə risk yaradan halların qarşısının alınması və aradan qaldırılması tədbirləri;

17.2.3 Mülki aviasiya subyektinin uçuşların təhlükəsizliyi sahəsində keçirdiyi təlimlərinin qiymətləndirilməsi;

17.2.4 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə məlumatların verilməsi ilə əlaqədar olaraq hər hansı məsuliyyət tədbirlərinin istisna edilməsi;

17.2.5 Uçuşların təhlükəsizliyinə təsir edə bilən hədələrin təkrarlanmasına yol verməmək məqsədilə buna səbəb olan halların araşdırılması;

17.2.6 Araşdırmanın aparılmasını zəruri edən məlumatların müəyyən edilməsi;

17.2.7 Uçuşların təhlükəsizliyinə təsir edə biləcək hallara təşkilati, texniki, idarəetmə və ya insan amillərinin təsirinin müəyyən edilməsi.

17.3 Məlumatların daxildə verilməsini təmin edən proqram təminatı bu Qaydanın 17.2-ci bəndində qeyd olunanlarla yanaşı, uçuşlara dair məlumatların təhlili və daxili audtini, təhlükənin müəyyən edilmə mənbələrinin monitorinq sxemini, uçuşların təhlükəsizliyinə dair araşdırmaları, keçirilən təlimlərə dair rəyləri, aviasiya hadisələri və insidentlərinə dair araşdırmanı və uçuşların təhlükəsizliyi ilə bağlı məlumatları özündə ehtiva edir.

17.4 Təhlükənin müəyyən edilməsinə imkan verən xarici məlumat mənbələri özündə aviasiyada istehsalat hadisələri ilə bağlı hesabatları, Agentlik tərəfindən keçirilən auditi və məlumat mübadiləsi sistemlərini ehtiva edir.

17.5 Əməkdaşlar uçuşların təhlükəsizliyi üçün təhlükənin aradan qaldırılmasına cəlb edildiyi zaman aşağıdakılar nəzərə alınır:

17.5.1 Təhlükənin xüsusiyyətləri, o cümlədən zəruri avadanlıq və verilən tapşırığın mahiyyəti;

17.5.2 Əməkdaşların peşəkarlığı və təcrübəsi;

17.5.3 Əməkdaşların yoxlanma vərəqələrinin mövcud istismar şəraitinə uyğunluğu;

17.5.4 Əməkdaşların ünsiyyət bacarıqları, o cümlədən informasiya vasitələri ilə işləmək qabiliyyəti və dil bilikləri;

17.5.5 Əməkdaşların təlimatlandırılması, onlar arasında əmək bölgüsü, o cümlədən,

korporativ idarəetmə və təşkilati bacarıqların aşılanması;

17.5.6 Təhlükəsizliyin təmin edilməsi ilə bağlı səs-küy və vibrasiya, temperatur və işıqlandırma, mühafizə avadanlıqları və xüsusi geyimin təmin edilməsi imkanı;

17.5.7 Səlahiyyətli işçi heyətin sertifikatlaşdırılma tələblərinə uyğunluğu;

17.5.8 İnsan-maşın interfeysinin xüsusiyyətləri və istismar göstəricilərinə nəzarət sistemləri;

17.5.9 Vəzifə və öhdəliklərin ötürülməsinə dair mülki aviasiya subyektləri arasında bağlanmış müqavilə ilə müəyyən edilmiş şərtlər.

18 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYI ÜÇÜN RISKIN QIYMƏTLƏNDIRILMƏSI VƏ UZADILMASI

18.1 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə nöqsanların aradan qaldırılması tədbirlərinin müəyyən edilməsi və həyata keçirilməsi məqsədilə mülki aviasiya subyekti tərəfindən aşağıda göstərilənləri özündə ehtiva edən “Nöqsanların aradan qaldırılması üzrə Tədbirlər Planı” hazırlanır və Agentlik tərəfindən təsdiq edilir:

18.1.1 Tədbirin növü;

18.1.2 Tədbirlərin təhlili və təsdiqi;

18.1.3 Tədbirlərin icrası üzrə məsul şəxs;

18.1.4 Məsul şəxs tərəfindən tədbirlərin icrası qaydası;

18.1.5 Tədbirlərin həyata keçirilməsi müddəti;

18.1.6 Tədbirlərin nəticələrinin qiymətləndirilməsi qaydası, o cümlədən toplanması tələb olunan məlumatlar, gözlənilməz fəsadların baş verə bilmə ehtimalı barədə xəbərdarlıq və tədbirin həyata keçirilməsinə görə cavabdeh olan şəxs;

18.1.7 Tətbiq olunacaq metod;

18.1.8 Tədbirin nəticələri ilə bağlı hesabat.

18.2 Risklər qiymətləndirildikdən sonra, mülki aviasiya subyekti riskin azaldılması tədbirlərinə zərurətin olub-olmadığını müəyyən etmək üçün müvafiq qərar qəbul edir.

18.3 Uçuşların təhlükəsizliyi üçün riskin azaldılması ilə bağlı hər bir tədbir aşağıdakı meyarlar baxımından təhlil olunur:

18.3.1 Səmərəlilik: tədbirin uçuşların təhlükəsizliyi üçün riski hansı səviyyədə aşağı salması və yaxud aradan qaldırması;

18.3.2 Xərclər: maliyyələşdirilməsi gəlirlər və mərkəzləşdirilmiş gəlirlərdən ayrılan vəsait hesabına həyata keçirilən riskin azaldılması üzrə xərcləri;

18.3.3 Təcrübəyə uyğunluq: tədbirlərin mövcud texnologiya, maliyyə və inzibati resurslar baxımından icrasının mümkünlüyü;

18.3.4 Tələblərə uyğunluq: istismarçılar tərəfindən görüləcək tədbirlərin normativ tələblərə uyğunluğu səviyyəsi;

18.3.5 Tətbiqinin mümkünlüyü: görüləcək tədbirlərin səmərəli tətbiqi;

18.3.6 Davamlılıq: tədbirin mütəmadilik səviyyəsi;

18.3.7 Aradan qaldırılmamış risklər: risklərin azaldılması üçün görülmüş tədbirlərdən sonra qalmaqda davam edən və risklərə nəzarət üzrə əlavə tədbirlərin görülməsini tələb edən uçuşların təhlükəsizliyi üçün riskin dərəcəsi;

18.3.8 Nəzərdə tutulmayan fəsadlar: riskin azaldılması üzrə istənilən alternativ tədbirin görülməsi ilə yaranan uçuşların təhlükəsizliyi üçün risklərin və yeni təhlükələrin ortaya çıxması.

18.4 Uçuşların təhlükəsizliyi ilə bağlı riskin azaldılması məqsədilə aşağıdakı tədbirlər görülür:

18.4.1 Uçuşların təhlükəsizliyi üçün risklərin idarə olunması qeyri-mümkün olduğu hallarda mülki aviasiya subyektinin fəaliyyətin dayandırılması;

18.4.2 Uçuşların təhlükəsizliyi üçün risklər görülmüş müəyyən tədbirlər vasitəsilə azaldıldıqda mülki aviasiya subyektinin fəaliyyətinin məhdudlaşdırılması;

18.4.3 Nöqsanların aradan qaldırılması üzrə tədbirlərin görülməsi ilə bağlı uçuşların təhlükəsizliyi üçün risklərin nəticələrinin aradan qaldırılması.

18.5 Bu Qaydanın 18.3-cü bəndində göstərilmiş riskin azaldılmasına yönəldilmiş tədbirlər həm eyni vaxtda, həm də ardıcıl olaraq tətbiq edilə bilər. Hər bir alternativ tədbirin həyata keçirilməsinin səmərəliliyi qərar qəbul edilməzdən əvvəl qiymətləndirilir.

18.6 Bu Qaydanın 18.3-cü bəndində nəzərdə tutulmuş tədbirlər tətbiq edildikdən sonra yeni istismar şəraitində uçuşların təhlükəsizliyinin təmin edilməsi sistemlərinin tamlığının və səmərəliliyinin təmin edilməsi və bu tədbirlərin nəticələri ilə bağlı mülki aviasiya subyektinə məlumat verilir.

18.7 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin səmərəli həyata keçirilməsi üçün aparılan yoxlamaların nəticələri məlumat baza-qeydiyyat sistemində qeydə alınır. Bu qeydiyyat sistemi uçuşların təhlükəsizliyinin təmin edilməsinə risk yaradan halların səbəbinin müəyyən edilməsinə və gələcəkdə bu halların təkrar olunmaması üçün preventiv tədbirlərin görülməsinə xidmət edir.

19 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSINƏ ÜMUMI NƏZARƏT

19.1 Mülki aviasiya subyekti uçuşların təhlükəsizliyinin təmin edilməsinə müvafiq nəzarət mexanizmlərini nəzərdə tutan müvafiq prosedurlar qəbul edir.

19.2 Mülki aviasiya subyekti uçuşların təhlükəsizliyi üzrə potensial risk yarada biləcək, yaxud risklərə nəzarət üzrə mövcud mexanizmlərin pisləşməsinə səbəb olacaq boşluqları aşkar etmək üçün istismar mühitini mütəmadi olaraq nəzarətdə saxlayır.

20 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSI ÜZRƏ FƏALIYYƏTIN MONITORINQI VƏ ONUN ÖLÇÜLMƏSI

20.1 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə fəaliyyətin yoxlanılması və uçuşların təhlükəsizliyi üçün risklərə nəzarət mexanizmlərinin səmərəliliyinin müəyyən edilməsi məqsədilə mülki aviasiya subyekti tərəfindən uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə səmərəlilik göstəricilərinin monitorinqi aparılır və uçuşların təhlükəsizliyi üçün risklərin dərəcəsinin təyin edilməsi qaydası müəyyən edilir.

20.2 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə nail olmaq məqsədilə mülki aviasiya subyekti "Qəza Xəbərdarlıq Tədbirləri Planı"nı Agentliklə razılaşdırılmaqla təsdiq edir.

20.3 Uçuşların təhlükəsizliyinin göstəricilərini müəyyən etmək və yoxlamaq üçün tələb olunan statistik məlumatlarla yanaşı, mülki aviasiya subyekti tərəfindən uçuşların təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar fəaliyyəti haqqında məlumatlar 3 ayda bir dəfə Agentliyə təqdim olunur.

20.4 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə səmərəlilik göstəricilərinin müəyyən edilməsi məqsədilə mülki aviasiya subyekti Agentliyə nöqsanların aradan qaldırılması üzrə tədbirlər planını təqdim edir.

20.5 Uçuşların təhlükəsizliyi fəaliyyətinin monitorinqi qaydası aşağıdakıları nəzərdə tutur:

20.5.1 İstismar proseslərinin davamlı monitorinqi, o cümlədən qəza xəbərdarlığı səviyyəsinin müəyyən edilməsi və uçuşların təhlükəsizliyi göstəriciləri üzrə tələb olunan hesabatın, yaxud digər zəruri məlumatların Agentliyə təqdim edilməsi;

20.5.2 Təşkilatda baş verən dəyişikliklərin aşkar edilməsi məqsədilə istismar mühitinin dövri monitorinqi;

20.5.3 İstismar prosesləri üzrə audit yoxlamaları;

20.5.4 UTİS-in qiymətləndirilməsi;

20.5.5 Uçuşların təhlükəsizliyi üzrə məlumatların qiymətləndirilməsi;

20.5.6 Mülki aviasiya subyektinin resursları və uçuşların təhlükəsizliyinin idarəetməsi ilə bağlı məlumatların qiymətləndirilməsi.

20.6 Mülki aviasiya subyekti mütəmadi olaraq UTİS-i monitorinq edir və rübdə bir dəfə faktiki uçuşların təhlükəsizlik göstəricilərinə dair hesabatı Agentliyin müəyyən etdiyi formaya uyğun olaraq Agentliyə təqdim edir.

20.7 Təşkilat rüblük hesabatlarla bağlı Agentliyin müəyyən etdiyi əsaslandırılmış tələbləri icra edir və onların nəticələrini rəsmiləşdirir.

21 MÜLKI AVIASIYA SUBYEKTINDƏ DƏYIŞIKLIKLƏRIN IDARƏ OLUNMASI

21.1 Mülki aviasiya subyekti aviasiya sahəsində göstərilən xidmətlərin təhlükəsizliyinə təsir edə bilən dəyişikliklərin yaratdığı riskləri və təhlükəni müəyyən edir, onları idarə etmək üçün fəaliyyət planı hazırlayaraq təsdiq və tətbiq edir.

21.2 Mülki aviasiya subyekti dəyişikliklərin idarə olunması ilə bağlı aşağıdakı tədbirləri həyata keçirir:

21.2.1 İstismar, təşkilati və rəhbər heyətlə bağlı mühüm dəyişikliklərlə əlaqədar təhlükənin təhlili;

21.2.2 Riskin qiymətləndirilməsinin rəsmiləşdirilməsi;

21.2.3 Uçuşların təhlükəsizliyinin qiymətləndirilməsi.

21.3 Dəyişikliyin həcmindən asılı olmayaraq, təhlükəsizlik üçün mühüm hesab olunan zərər qabaqcadan nəzərə alınır.

21.4 Tətbiq edilən struktur dəyişiklikləri işçi heyətin fəaliyyətinə mənfi təsir göstərməməlidir. Dəyişikliyin həcmi, onun uçuşların təhlükəsizliyinin təmin edilməsi baxımından ciddiliyi və əməkdaşların peşə vəzifələrinin yerinə yetirilməsinə potensial təsiri dəyişikliyin idarə olunması üzrə istənilən mərhələdə qiymətləndirilir.

21.5 Mülki aviasiya subyektində baş verən hər hansı dəyişikliyin idarə edilməsi üçün görülən tədbirlər dəyişikliklərin idarə edilməsi planına daxil edilir.

21.6 Mülki aviasiya subyekti tərəfindən dəyişikliyin idarə edilməsi aşağıdakıları əhatə edir:

21.6.1 Hava gəmisinin təhlükəsiz istismarı üçün zəruri olan avadanlıqlara dair dəyişikliyin uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün əhəmiyyətinin qiymətləndirilməsi;

21.6.2 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin sabitliyinin təmin edilməsi və uçuşların təhlükəsizliyi üçün risklərin nəzarətdə saxlanılması üçün dəyişikliklərdən sonra uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə nöqsanların aradan qaldırılması üzrə müvafiq tədbirlərin həyata keçirilməsinin mümkünlüyünün qiymətləndirilməsi;

21.6.3 İstismar mühitinin sabitliyinin təmin edilməsi üçün mülki aviasiya subyektinin digər mülki aviasiya subyektləri ilə bağladığı müqavilələrin, göstərilən xidmət sahələrinin, yeni texnologiyaların, həmçinin əmək mübahisələri ilə bağlı istismar rejimlərində edilən dəyişikliklərin qiymətləndirilməsi;

21.6.4 Nöqsanların aradan qaldırılması üzrə müvafiq tədbirlərin səmərəliliyinin müəyyən edilməsi üçün əvvəlki dövrə aid göstəricilərlə müqayisənin aparılması yolu ilə uçuşların təhlükəsizliyinin təmin edilməsi vəziyyətinə dair göstəricilərin təhlili.

22 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSI ÜZRƏ FƏALIYYƏTIN MÜTƏMADI OLARAQ TƏKMILLƏŞDIRILMƏSI

22.1 Mülki aviasiya subyekti uçuşların təhlükəsizliyinin təmini sistemini tətbiq edən heyətin bilik və bacarığının, həmçinin peşəkarlıq səviyyəsinin artırılması üçün uçuşların təhlükəsizliyi üzrə təlim proqramı işləyib hazırlayır.

22.2 Uçuşların təhlükəsizliyi üzrə təlim proqramı təlimlərə cəlb olunan əməkdaşın UTİS çərçivəsində tutduğu vəzifəyə uyğun müəyyən edilir.

22.3 Uçuşların təhlükəsizliyi üzrə təlim proqramı mülki aviasiya subyektinin fəaliyyətinin xüsusiyyətindən asılı olaraq, aşağıdakı mövzuları əhatə edir:

22.3.1 Mülki aviasiya subyektinin uçuşların təhlükəsizliyi üzrə fəaliyyət istiqamətləri, hədəfləri və məqsədləri;

22.3.2 Əməkdaşların mülki aviasiya subyektində uçuşların təhlükəsizliyi ilə bağlı hüquq və vəzifələri;

22.3.3 Uçuşların təhlükəsizliyi üzrə risklərin idarə edilməsinin əsas prinsipləri;

22.3.4 Uçuşların təhlükəsizliyi barədə rəhbərliyə verilməli olan hesabat;

22.3.5 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün risklərin idarə edilməsinin qiymətləndirilmə vasitələri;

22.3.6 Uçuşların təhlükəsizliyi barədə məlumatın ötürülməsi qaydası;

22.3.7 Təkrar təlimlərin həyata keçirilməsinin əsasları.

22.4 Mülki aviasiya subyektinin rəhbərliyi üçün təşkil edilən uçuşların təhlükəsizliyi üzrə təlim proqramına, həmçinin uçuşların təhlükəsizliyi sahəsində milli qanunvericiliyin tələblərinə uyğunluq, kadr resursları arasında iş bölgüsü, UTİS-in təkmilləşdirilməsi, uçuşların

təhlükəsizliyinin təmini ilə bağlı struktur bölmələri arasında səmərəli əməkdaşlıq haqqında mövzular daxil edilir.

23 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSI SAHƏSINDƏ ƏMƏKDAŞLIQ

23.1 Mülki aviasiya subyekti Agentlik və digər mülki aviasiya subyektləri ilə səmərəli əməkdaşlığın təmin edilməsi üçün uçuşların təhlükəsizliyi barədə aşağıdakı tədbirləri həyata keçirir:

23.1.1 İşçi heyətin tutduğu vəzifədən asılı olaraq, vaxtında UTİS-in vəziyyəti barədə məlumatlarla təmin edilməsi;

23.1.2 Uçuşların təhlükəsizliyi ilə bağlı konkret tədbirlərin zəruriliyinin əsaslandırılması;

23.1.3 Uçuşların təhlükəsizliyi üzrə təlimatların tətbiqi və onlarda dəyişiklik edilməsinin əsaslandırılması.

23.2 Uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində Agentlik və digər mülki aviasiya subyektləri ilə əməkdaşlıq aşağıdakı vasitələrlə həyata keçirilir:

23.2.1 İnformasiya bülleteninin dərc edilməsi;

23.2.2 Uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində Agentliyə təqdimatların verilməsi;

23.2.3 Digər mülki aviasiya subyektlərinə müvafiq bildirişlərin verilməsi;

23.2.4 Uçuşların təhlükəsizliyi vəziyyəti barədə məlumatların mütəmadi dərc edilməsi;

23.2.5 UTİS üzrə müvafiq seminarların keçirilməsi və mühazirələrin oxunması;

23.2.6 İşçi heyətlə uçuşların təhlükəsizliyinin təmin edilməsinə dair dəyirmi masaların təşkil edilməsi.

24 UTİS-IN TƏTBIQININ PLANLAŞDIRILMASI

24.1 Hər bir mülki aviasiya subyekti UTİS-in tələblərinin yerinə yetirilməsi üçün təşkilatın strukturundan, uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə risklərin idarə edilməsi üçün tələblərdən və onların tətbiqi qaydasından, habelə uçuşların təhlükəsizliyi sahəsində qarşılılı əməkdaşlığın əsas istiqamətlərindən ibarət qayda hazırlayır.

24.2 Mülki aviasiya subyektləri qarşılıqlı əlaqələrin idarə edilməsi və qiymətləndirilməsini həyata keçirən zaman digər mülki aviasiya subyektləri ilə müqavilə üzrə əməkdaşlığın həyata keçirilməsində hər hansı dəyişiklikləri və onların UTİS-in tətbiqinə təsirlərini qiymətləndirir.

24.3 Mülki aviasiya subyektləri arasında səmərəli əməkdaşlıq aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

24.3.1 UTİS-in tətbiqində hər bir mülki aviasiya subyektinin rolunun və məsuliyyətinin müəyyənləşdirilməsi;

24.3.2 Görülməli tədbirlərlə bağlı qərarların, o cümlədən uçuşların təhlükəsizliyi üçün risklərə nəzarət tədbirlərinin və onların həyata keçirilməsinə dair vaxt qrafikinin digər mülki aviasiya subyektləri ilə razılaşdırılması;

24.3.3 Uçuşların təhlükəsizliyinin təşkili üzrə mübadiləsi zəruri olan məlumatların siyahısının müəyyən edilməsi;

24.3.4 Əməkdaşlığın həyata keçirilməsi vasitələrinin müəyyən edilməsi;

24.3.5 Hər bir mülki aviasiya subyekti üçün münasib olan və UTİS-in təşkilinin səmərəliliyinə mənfi təsir göstərməyən tədbirlərin müəyyən edilməsi.

24.4 Qarşılıqlı əməkdaşlıq çərçivəsində həyata keçiriləcək bütün tədbirlər digər mülki aviasiya subyektləri üçün əlçatan və onun təyinatına uyğun olması şərtilə rəsmiləşdirilir.

25 UÇUŞLARA DAIR MƏLUMATLARIN DAIMI MONITORINQ PROQRAMI

25.1 İstismarçı sertifikatına malik olan hüquqi və fiziki şəxslər UTİS-in mühüm tərkib hissəsi olan uçuş məlumatlarının monitorinq proqramını hazırlayır və təsdiq edilməsi üçün Agentliyə təqdim edir.

25.2 Bu Qaydanın 25.1-ci bəndində qeyd olunmuş monitorinq proqramında uçuşların təhlükəsizliyinə təhlükə yaradacaq hər hansı riskin müəyyən edilməsi zamanı həyata keçirilməsi zəruri olan qabaqlayıcı tədbirlər nəzərdə tutulur.

25.3 Uçuşlara dair məlumatların monitorinq proqramının icrası zamanı mülki aviasiya subyekti uçuş heyətinin kabinəsində qeydə alınan səs yazılarından yalnız Agentliyin razılığı ilə istifadə edə bilər.

26 UTİS-IN MÜLKI AVIASIYA SAHƏSINDƏ FƏALIYYƏT GÖSTƏRƏN TƏŞKILATIN FƏALIYYƏT ISTIQAMƏTLƏRINƏ UYĞUNLUĞU

26.1 UTİS-in təşkilatın fəaliyyət istiqamətlərinə uyğunluğu aşağıdakı meyarları nəzərdə tutur:

26.1.1 Təşkilati strukturu və resursların mövcudluğu;

26.1.2 Təşkilatın fəaliyyətinin xüsusiyyəti və mürəkkəbliyi;

26.1.3 Xarici mülki aviasiya subyektləri ilə qarşılıqlı əlaqələrin əhatə dairəsini.

26.2 Mülki aviasiya subyekti cavabdeh şəxslərə və ixtisaslı mütəxəssislərə ehtiyacın olub-olmaması nəzərə alınmaqla, UTİS-i idarə etmək üçün öz resurslarını təhlil edir.

26.3 Mülki aviasiya subyektlərinin fəaliyyət istiqamətindən asılı olmayaraq, UTİS-in miqyasının mütəmadi genişləndirilməsi zərurətini və uçuşların təhlükəsizliyinin idarə edilməsi resurslarına uyğun olmasını nəzərə alaraq, mülki aviasiya subyektləri uçuşların təhlükəsizliyi üçün riskləri özündə ehtiva edən fəaliyyətlə məşğul ola bilər.

27 UTİS-DƏ BOŞLUQLARIN TƏHLILI

27.1 Mülki aviasiya subyekti UTİS-in tətbiqindən əvvəl bu sistemdəki boşluqları təhlil edir. UTİS təşkilatın fəaliyyət xüsusiyyətinə və həmin təşkilatın mövcud daxili prosedur qaydalarına əsaslanmalıdır.

27.2 UTİS-in tətbiq planı bu sistemin tətbiq edilməsi üçün tələb olunan resursları əks etdirərək, vaxt qrafikini və tətbiq ardıcıllığını hər bir mülki aviasiya subyekti üçün xarakterik olan aşağıdakı amillərə əsasən müəyyən edir:

27.2.1 Tənzimləyici normativ hüquqi aktlara və istismar tələblərinə;

27.2.2 Mülki aviasiya subyektinin sertifikatında müəyyən edilmiş şərtlərə;

27.2.3 UTİS-in mövcud mülki aviasiya subyektinin strukturu və fəaliyyət istiqamətlərinə uyğunluq dərəcəsinə;

27.2.4 Kadr resursları və maliyyə vəsaitinə;

məlumat bazası-qeydiyyat sisteminə.

28 UTİS-IN QIYMƏTLƏNDIRILMƏSI

28.1 UTİS-in qiymətləndirilməsi uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müfəttişlər tərəfindən monitorinq, audit, yoxlama-təftiş və digər yoxlama üsulları vasitəsilə aparılır.

28.2 UTİS-in qiymətləndirilməsinin nəticələri Agentlik tərəfindən məlumat qeydiyyat sistemində qeydə alınır və növbəti müfəttiş yoxlamaları zamanı nəzərə alınır.

29 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSINƏ DÖVLƏT NƏZARƏTI

29.1 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili və idarə edilməsi Agentlik tərəfindən mütəmadi yoxlanılır. Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin inkişaf etdirilməsi üçün onun təşkilinə nəzarət Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın 5-ci hissəsi ilə müəyyən edilmiş uçuşların təhlükəsizliyinin təmin edilməsi istiqamətlərinə uyğun olaraq müfəttiş yoxlamalarının, təhlillərin, auditlərin, monitorinqlərin aparılması vasitəsilə həyata keçirilir.

29.2 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinə nəzarətin həyata keçirilməsində məqsəd sistemin səmərəliliyinin xidmət təminatçıları tərəfindən qiymətləndirilməsinə kömək etmək və nəticədə uçuşların təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsinə töhfə verməkdir.

29.3 Agentlik tərəfindən həyata keçirilən dövlət nəzarəti və onun nəticələri barədə məlumatlar uçuşların təhlükəsizliyinə dair məlumat bazası-qeydiyyat sisteminə daxil edilərək sistemli təhlil edilir və nöqsanların aradan qaldırılması üzrə müvafiq tədbirlərin görülməsi məqsədilə bu Qaydanın 3.1-ci bəndində müəyyən edilmiş təşkilatların diqqətinə çatdırılır.

30 DÖVLƏT NƏZARƏTI NƏTICƏSINDƏ AŞKAR EDILMIŞ NÖQSANLARIN ARADAN QALDIRILMASI ÜZRƏ TƏŞKILATLARIN VƏZIFƏLƏRI

30.1 Mülki aviasiya subyektləri dövlət nəzarəti çərçivəsində aparılan müfəttiş yoxlamaları zamanı aşkar edilmiş uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə müvafiq nöqsanlar barədə məlumat aldıqda "Uçuşların təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi Qaydası"nda müəyyən olunmuş nöqsanların dərəcəsindən asılı olaraq, Agentlik tərəfindən verilmiş müddətdə nöqsanların aradan qaldırılması üzrə aşağıdakı tədbirləri görməlidirlər:

30.1.1 uyğunsuzluq üzrə nöqsanlara gətirib çıxan amilləri və uçuşların təhlükəsizliyi üçün nöqsanların baş verməsinin əsas səbəblərini müəyyən etməli;

30.1.2 nöqsanların aradan qaldırılması üzrə plan hazırlamalı, təsdiq və tətbiq etməli;

30.1.3 müfəttiş yoxlamaları nəticəsində aşkar olunmuş nöqsanların aradan qaldırılması üzrə görülən və görüləcək müvafiq tədbirlər barədə Agentliyə məlumat verməlidir.

30.2 Mülki aviasiya subyektlərinin uçuşların təhlükəsizliyinin idarə edilməsi ilə bağlı fəaliyyətinin bu Qayda ilə müəyyən edilmiş tələblərə uyğunluğunun təmin edilməsi məqsədilə uyğunluğun təminat vasitələri Agentlik tərəfindən müəyyən edilir.

30.3 Uyğunluğun alternativ təminat vasitələri mülki aviasiya subyektləri tərəfindən müəyyən edilərək Agentlik tərəfindən təsdiq edilir.

31 BU QAYDANIN POZULMASINA GÖRƏ MƏSULIYYƏT

31.1 Uçuşların təhlükəsizliyini idarə edilməsini təmin edən mülki aviasiya subyektləri vu Qaydanın 30-cu hissəsində müəyyən edilmiş vəzifələri Agentlik tərəfindən müəyyən edilmiş zaman çərçivəsində və lazımi şəkildə yerinə yetirmədikdə, onlar barəsində "Uçuşların təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi Qaydası"nda müəyyən olunmuş məcburi tədbirlər həyata keçirilir.